Ötən günün əks-sədası

# Dünyanın xeyirxah mələkləri

**İki gün əvvəl qədirbilən bəşəriyyət mənim, sənin – dünyada hamının xeyirxah mələkləri olan, bütün peşə sahiblərini yetişdirən müəllimlərin şərəfinə 5 Oktyabr Beynəlxalq Müəllimlər Gününü növbəti dəfə böyük sevgi-sayğılarla qeyd etdi. Bu ümumdünya təntənəsini müəllim olmayanlar keçirdilər. Müəllimlər üçünsə həyatın hər dərs günü elə onların günüdür.**



Hər gününü müəllimliklə başlayan bu insanlar cəmiyyətin ən zəhmətkeş, ən fədakar və ən təmənnasız insanlarıdır. Onların fəaliyyəti digər peşə sahiblərinin işinə heç bənzəmir. Kimi elm öyrənir, başqası körpü tikir, yol salır, kimlərsə ərzaq və ya digər tələbat malları istehsal edir. Müəllimlər isə bu peşələrə yiyələnib xalqa xidmət etmək və öz həyatını firavan yaşamaq istəyən kimsələrin özünü yetişdirir. Fərqi duya bilirikmi?

Alim də, mühəndis də, həkim də, əkinçi də müəllimin peşə-sənət məhsullarıdır. Bu qədər məsuliyyətli və bu qədər çətin bir işi öz çiyinlərinə almış müəllimlərimiz bu ağır yükün altında yaşayır, yaradır, öyrədir və yönləndirir. Nəticə isə cəmiyyətin mədəniyyətində və elmində, yaşamında və davranışında, bütövlükdə, ictimai şüur səviyyəsində özünü göstərir. Biz bu gün nəyiksə və kimiksə, ona görə valideynlərimizlə yanaşı, müəllimlərimizə də borcluyuq. Odur ki, müəllimləri ikinci valideyn də adlandırırlar.

Bir zamanlar dəbdə olan "əti sənin, sümüyü mənim" ifadəsinin mənasına diqqət yetirəndə övladlarının uğuru üçün çəkilməli olan zəhmətin də bir hissəsinin, sanki valideynlər tərəfindən müəllimlərin üzərinə qoyulduğunu sezirik. Bu həm də valideynlərin şəxsində cəmiyyətin müəllimlərə bəslədiyi etimadın göstəricisi idi. Müəllimlər bunu da təvazökarlıqla qarşılayıb, hamının, o cümlədən valideynlərin də missiyalarını qismən öz üzərinə götürməkdən imtina etmirdilər.

Elə indi də belədir. Bəzi hallarda övladlar valideynlərin gözləntilərini doğrultmayanda günah müəllimlərdə axtarılır, irad onlara bildirilir. Bütün bunlara baxmayaraq müəllim insan yetişdirmək missiyasından usanmır, gecəsini gündüzünə qatıb bəzən heç tanımadığı insanların övladlarını xoşbəxt etməyə çalışır. Belə bir fədakarlıq heç bir peşə sahibinə xas olan məziyyət deyil. Yalnız müəllimlər bunu edir.

Müxtəlif fəaliyyət sahələrində çalışan fərqli peşə sahibləri karyerası boyunca daha yaxşı işləməyə, daha çox qazanmağa və nəticədə daha yaxşı yaşamağa cəhd göstərirlər. Müəllimlər isə daha çox işləyib daha yaxşı insan yetişdirmək arzusu ilə yaşayırlar. Yetişdirmələrinin uğurunu da, qazancını da, xoşbəxtliyini də özününkü sayırlar və bununla özlərinə mənəvi rahatlıq tapırlar. Yetişdirdikləri insanların cəmiyyətdəki yüksək yeri və müsbət rolu ilə fəxr edirlər, amma özlərinin bu nailiyyətlərdəki əvəzsiz rolundan heç danışmırlar. Bütün bunlar üçün heç nə tələb etmirlər.

Onlar danışmasa da bu barədə biz danışmalıyıq. Biz, heç olmasa, hər il müəllimlər günündə özümüzə baxıb bu gün kim və nəçi olduğumuza görə vəfa borcumuz olan insanları xatırlamalı və onlara minnətdar olduğumuzu bildirməliyik.

Bütün müəllimlərimi çox yaxşı xatırlayıram, atamı və anamı xatırladığım kimi. Valideynlərim müəllimlərim olublar, müəllimlərim isə mənə həmişə valideyn qayğısı ilə yanaşıblar. Hər birisini təbəssümündən, sevincindən və təəssüfündən, fərəhindən və narazılığından yaranan fərqli üz cizgilərinə, mehriban və ya sərt baxışlarına qədər aydın xatırlayıram. Şəkinin Böyük Dəhnə kənd orta məktəbində, Turan qəsəbəsi qarışıq tipli internat məktəbində və Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda mənə dərs demiş müəllimlərimin bilik və peşə ilə yanaşı, həyat dərslərini də öyrənmişəm.

Tələbələrinin və şagirdlərinin uğurlarına sevinən, səhv və yanlışlıqlarına təəssüflənən, nailiyyətləri ilə fəxr edən insanlar xeyirxah mələkləri xatırladır. Qədim əsatirlərdən və nağıllardan bizə boylanan xeyirxah mələklər xalq tərəfindən çox sevilən, həyat boyu təkrar-təkrar qarşılaşmaq üçün daim arzulanan müqəddəs varlıqlardır. Sizə ömür boyu minnətdarıq, xeyirxah mələklərimiz!

Yaş ötdükcə unudulmayan və əksinə, məktəb illərinin şirin xatirələrində daha da doğmalaşan müəllimlərimə və onların timsalında bütün Azərbaycan müəllimlərinə möhkəm cansağlığı, müqəddəs vəzifələrində davamlı uğurlar, firavanlıq və xoşbəxtlik arzulayıram.

Müəllimlərimizə sonsuz ehtiramla:

**Cavanşir FEYZİYEV,**
**Milli Məclisin deputatı**